# Türk xalqlarının tarixində əlamətdar hadisə

Türk Dövlətləri Təşkilatı (TDT) 3 oktyabr 2009-cu ildə Naxçıvan şəhərində imzalanan Naxçıvan Müqaviləsilə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan arasında qurulmuş olan beynəlxalq təşkilatdır.

Özbəkistan 30 aprel 2018-ci ildə bu təşkilata qatılma niyyətinin olduğunu açıqlamış və 14 sentyabr 2019-cu ildə Türk Şurasına üzv olmuşdur. Bu əməkdaşlıq Şurasının qurulması fikri ilk dəfə 2006-cı ildə Qazaxstan prezidenti Nursultan Nazarbayev tərəfindən təklif edilmişdir. 24 may 2019-cu il tarixində Türkiyə prezidenti Rəcəb Tayyub Ərdoğanın təklifi və şura üzvlərinin razılığı ilə Nursultan Nazarbayev Türk Şurasının ömürlük fəxri rəhbəri ünvanını almışdır. 2018-ci ilin sonlarından bu yana Macarıstan müşahidəçi dövlətdir və yaxın zamanda Türk Şurasına tam üzvlük tələbini etməsi gözlənilir.

Təməlləri 1992-ci ildən bu yana müəyyən fasilələrlə toplanan Türkcə Danışan Ölkələr Zirvəsinə dayanan Şuranın qurumsal mərkəzləri İstanbul (ümumi katiblik), Bakı (Parlament Assambleyası) və Astanadır (Beynəlxalq Türk Akademiyası).





Türk Dövlətləri Təşkilatının üç mərkəzi vardır. Bunlar- İstanbul, Bakı və Astanadır. İstanbul ümumi katibliyinin, Bakı Parlamentar Assambleyasının, Astana isə Beynəlxalq Türk Akademiyasının Mərkəzidir.

Ölkələrin dövlət rəhbərləri ildə bir dəfə rəsmi olaraq müxtəlif şəhərlərdə toplanırlar. Bundan əlavə, üzv ölkələrin xarici işlər nazirləri və bürokratları da il ərzində davamlı olaraq iclaslar keçirirlər. Məclis rəhbərləri və heyətləri Bakıda toplanır.







Azərbaycan, Qazaxstan, Qırğızistan və Türkiyə dölət rəhbərləri tərəfindən ümumi katib seçilən türk diplomat Xəlil Axıncı bu vəzifəni sentyabr 2010, sentyabr 2014 tarixləri arasında icra etmişdir. Bundan sonra rəhbərliyi Ramil Həsən yerinə yetirmiş, sonra onu vəzifədə Bağdad Amreyev əvəzləmişdir.

22 avqust 2012-ci ildə Bişkekdə təşkil olunan Türk şurasının II Zirvə görüşündə "Türk Mədəniyyəti və İrsi Fondu" yaradılmış, "Türk Akademiyası"nın beynəlxalq status alması qəbul edilmişdir. 12 oktyabr 2012-ci ildə isə İstanbulda üzv ölkələrin bayraqları ilə birlikdə bu bayraq Qazaxstan prezidenti Nursultan Nazarbayev və Türkiyə Prezidenti Abdullah Gül tərəfindən dalğalandırılmışdır. Bayrağın dizaynı üzv ölkələrin bayraqlarında olan ünsürlərin bir araya gətirilməsilə yaradılmışdır. Azərbaycan bayrağının ulduzu, Qzaxstan bayrağının rəngi, Qırğızıstan bayrağının günəşi və Türkiyə bayrağının ayparasından istifadə edilmişdir. Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçılarının 11-ci Zirvə görüşü 2024-cü il noyabrın 6-da Qırğızıstanın paytaxtı Bişkekdə keçirilib.









Türk Dövlətləri Təşkilatı Dövlət və hökumət Başçıları Şurasının 12-ci Zirvə Görüşünə 6-7 oktyabr 2025-ci il tarixlərində Qəbələ ev sahibliyi etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilk olaraq oktyabrın 6-da Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımı qəbul etdi.

Bunun ardınca Oktyabrın 6 sı və 7 də Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları və hökumət rəhbərləri: Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev, Macarıstanın Baş naziri Viktor Orban, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Türkmənistan Xalq Məslәhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Qəbələ Beynəlxalq Hava Limanında Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və digər rəsmi şəxslər tərəfindən qarşılandılar.

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşılayıb.

Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə çıxış edib.

Oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Xarici İşlər Nazirləri Şurasının toplantısı keçirilib. İclas TDT Dövlət Başçıları Şurasının Qəbələdə keçiriləcək 12-ci Zirvə Görüşü çərçivəsində baş tutub. Burada bir sıra vacib sənədlər təsdiq edilib.

İclasda qəbul olunan sənədlər

(Ardı 3-cü səhifədə).